Bünyadzadə Şəlalə

İNGİLİS DİLİNDƏ SİNONİM CƏRGƏLƏR HAQQINDA

Sinonimlər — Yazılışı və deyilişi müxtəlif olan, lakin eyni və ya yaxın mənaları bildirən sözlərə sinonimlər deyilir. Belə sözlər üç və üçdən daha çox oldaqda sinonimlər cərgəsi adlanır. Məsələn,

igid – cəsur – qəhrəman – qoçaq – qorxmaz
gözəl – qəşəng – göyçək – yaraşıqlı
vahid – bir – tək – yalqız – yegaırə
nəm-yaş –islanmış
gödək – alçaq – qısa
var – dövlət – sərvət

Sinonim yunanca "eyniadlı" deməkdir. linqvistikada müxtəlif cür tələffüz olunan və yazılan, ancaq eyni və ya oxşar mənaları olan sözlərdir. Sinonimlər nitq qabiliyyətini zənginləşdirməyə xidmət edir. Sinonimlər arasında oxşarlıq olsa da, onlar öz fikriifadə zənginliyi, müəyyən stillə bağlılığı və işlədilmə dərəcəsinə görə fərqlənirlər. Sinonimləri təşkil edən sözlər eyni nitq hissəsinə aid olur. Bədii ədəbiyyatda hər hansı bir deyimin təsir gücünü, bədiiliyini artırmaq üçün sinonim sözlərdən istifadə olunur. Sinonimlər dilin zənginliyini və ifadə qüdrətini göstərən əlamətlərdən biri sayılır. Məsələn***gözəl - qəşəng, ağıllı - dərrakəli, uca – hündür, ürək - qəlb, qalın – sıx***

Bədii ədəbiyyatda hər hansı bir ***deyimin təsir gücünü, bədiiliyini artırmaq*** üçün sinonim sözlərdən istifadə olunur.Sinonimlər dilin zənginliyini və ifadə qüdrətini göstərən əlamətlərdən biri sayılır.

Dilçilik tarixindən məlumdur ki, dildə öz əksini tapmış sinonimlər müxtəlif münasibətlərdə eyni bir əşyanın adı olub, səs tərkibilərinə görə fərqlənən və bütövlükdə öz oxşarlığını saxlayan sözlərdir.

Sinonimlər hər hansı bir məfhumla əlaqədar olub, onun müxtəlif çalarlarını ifadə edir. Sinonimliyin dilin leksik- semantik, morfoloji və sintaktik sistemində öz yeri vardır. Onlar üslubi məna çalarlarına malik olub, fikrin ifadə tərzində mühüm rol oynayır. Belə ki, sinonimlik təkrarın qarşısını alır, fikrin ifadə tərzindəki yeknəsəngliyi aradan qaldırır, dildə ahəngdarlığı, rəvanlığı təmin edir, fikri aydınlaşdırıb dəqiqləşdirir, ekspressiya yaradır. Sinonimlik həmişə dilin rəngliyinə xidmət edir.

Digər dillərdə olduğu kimi, ingilis dili də sinonimlərlə zəngindir. Odur ki, ingilis dilçiliyində də bu sahəyə aid bir çox elmi araşdırmalar aparılmış, tədqiqat işləri yazılmış, hətta bəzi ingilis yazıçılarının dili və üslubuna həsr edilmiş monoqrafiyalar da yazılmış, lüğəilər tərtib edilib nəşr olunmuşdur. İngilis dili materiallarında istər üslubi, istər qrammatik, istər sintaktik, istər frazeoloji və s. Sahələri əhatə edən sinonimlik haqqında məlumata rast gəlmək olur.

Bütün bu tədqiqat işləri, əlbəttə ki, ənənəvi metod, distributiv, substitutiv və denonativ metod üzərində öz əksini tapmışdır. Məhz buna görə də qeyd olunmalıdır ki, sinonimlik həm leksikologiya, həm semasiologiya, həm də üslubiyyətlə sıx bağlı bir sahədir. Təsnifatda onlar bir-biri ilə bir vəhdət təşkil edirlər.

Sinonimlər müəyyənləşdirilərkən onlara məxsus bir sıra xüsusiyyətlər də nəzərə alınır: məna yaxınlığı, qarşılıqlı əvəzetmə, müxtəlif strukturlu olması, cərgə təşkil etməsi, eyni nitq hissəsinə aid olması, sözün çoxmənalılığı və s. Sinonim cərgə mənaya görə daxili məna qruppu yaradaraq bir-biri ilə əlaqədar olur, bir əşya və hadisənin müxtəlif cəhətlərini müxtəlif baxımdan ifadə edən bir ümumi mənaya əsasən birləşir.

Sinonim cərgələrdə ən azı iki söz olmalıdır. Ona görə də həmin cərgələr tərkibcə müxtəlifüzvlü olurlar. Məsələn: iki üzvlü, üçüzvlü, dördüzvlü və s. Çoxüzvlülük bütün dillərdə belədir. Bunu aşağıdakı misallarda daha aydın görmək olar:

a/ ikiüzvlü sinonim cərgələr:
passanger (sərnişin)- commuter
storey (mərtəbə) –deck-flight
b/ üçüzvlü sinonim cərgələr:
overseas (xarici) –exotic-foreign
paddle (qısa avar) –oar-scull
drizzle (çirkin)-mist –shower
c/ dördüzvlü sinonim cərgələr:
lunatilk (ağıldan kəm, dəli) –loony- madman-maniac
palm (ovuc, əlin içi) – hand- mitt- paw
colonis (məskunlaşdırmaq) –people- populate-settle
handwriting (xətt; əlyazısı)- calligraphy- handscript
grassland (çəmən; çəmənlik) –downs –meadow- pasture
d/ beşüzvlü sinonim cərgələr
numerous (çox; çoxlu)- abundant- many- plentiful- several
lock(kilid) – bolt – clasp- fastening –padlock
nut (qoz; fındıq) – kernel –pip –seed-stone
green house(orenjereya)-vinery- glasshouse – hothouse-pavilion
bartender (bufetçi)- barkeeper- barmaid- barman
e/ altıüzvlü sinonim cərgələr:
move (hərəkət)- achievement- act- action- exploit – performance
denonce (təqsirləndirmək) –designate –miark- indicate-mean-singnify- symbolize

tired (yorulmaq)- drain- enervate- exhaust- fatique- weary
tooth (diş) –fang –incisor –yag – molar – task
l/ Yeddiüzvlük sinonim cərgələr:
delegation (nümayəndə) – commission – mission- contigent- deputation- embassy- legation
scolding (danlamaq) –lecture –rebuke- regri- mand- reproof- nom- talking to
timely (müasir) appropriate – convenient- prompt- punctual – suitable- well- timed
f/ səkkizüvlük sinonim cərgələr:
toss (atmaq, tullamaq) –agitate- cast- roll- project- propel – rock- throw
charm – enjlyment- enthansiasm- flavour, interest- keenness- dead
enable (imkan vermək) – allow –authorise- empower- facilitate- permit –sanction-warrant.

Müşahidələr göstərir ki, ingilis dilində çoxüzvlük sinonimlər çoxdur. Onların əksəriyyəti beş və ya altıdan artıq cərgədə birləşirlər. Həmin sinonim cərgələr yalnız, eyni mənanı bildirməyi, yaxın məna çalarlarına da malikdirlər, yəni nisbilik vəziyyətində də olurlar. Məsələn: məktəb (school) sözünün müqayisə məqsədi ilə aşağıda sinonim cərgəsinə fikir versək, bunun şahidi olarıq:

School- academy- class- college –discripline- faculty –group- institu-institution- lycee, pupils- students- teaching və s. O cümlədən də ***«dəstə»*** (group) sözü:

Category- class- cllassification- combination- -company- detachment- gorthering- grouping- organization- party- set- team və s.

Çoxüzvlü sinonim cərgələr adlanan bu cür sinonimlər yalnız üslubi yerinə görə bir-birindən fərqlənir və mətn xüsusiyyətlərinə görə çıxış edirlər. Sinonimlərə xas olan xüsusiyyətlərdən biri də sinonim cərgə təşkil edən sözlərin eyni bir nitq hissəsinə aid olmasdıır. Belə ki, sinonim təşkil edən sözlər eyni nitq hissəsinə aid olub qrammatik mənaya malik olurlar. Eyni nitq hissəsinə malik olmaq, yəni isim+ isim; sifət+sifət; fel+fel; zərf+zərf və s. düsturuna əsaslanmalıdır. Qeyd edək ki, sinonimlər eynilik bildirən sözlərin nominativ funksiyaları və üslub çalarlığı ilə bağlıdır. Bir paradiqmatik struktura daxil olan sözlərin nominativ funksiyaları və qrammatik mənaları eyni olarsa, onda sinonim münasibətində olan sözlər arasında eynilik yaranır. Həmin sözlərin də məna eyniliyi və ya yaxınlığı, nitqdə işlədilməsi, əvəz olunma xarakteri, eyni sözün təkrarına yol verilməməsi, üslubi xüsusiyyətlərlə bağlıdır.

Sinonim cərgə təşkil edən sözlər onların məna və məzsmunları deyil, əlamətləri əsas götürülür. Sinonim cərgə məhz həmin əlamətə görə də yaranır. Sinonimiyada yaxınlıq sinonim münasibətdə olan məfhumların ümumi bir məna ifadə etməsi ilə əlaqədardır. Bir məfhum ifadə etmələrinə görə sözlər bir-birinə yaxınlaşır. Bu yaxınlaşma məzmunda deyil, ayrı-ayrı əlamətlərdəndir.

Sinonimlərin eyniliyi isə onların mənalarındaki bir əlamətin eyniliyidir. Ona görə də sinonim cərgələrin üzvləri bir-biri ilə bu əlamətlərinə görə uyğunluq təşkil edirlər. Onlar nəzərdən keçirdikcə aydın olur ki, sinonimlərə ən çox isim, sifət, fel və zərfdə təsadüf olunur. Aşağıdakı misallar da bunu tam aydınlığı ilə təsdiq edir:

1. İsmə aid olan sinonim cərgələr:

Delegate (nümayəndə) – ajent- ambassodor- commissioner –deputy- repressentative
Error (səhv) –blunder – fault- inaccuracy- lapse- mistake- wrong- misunderstanding

2. Sifətə aid olan sinonim cərgələr:

Green (yaşıl; göy)- flourishing – fresh- grassy- unripe- unseasoned- verdant
Greedy (tamahkar) –desirous- eager- gluntonous- hungry- impatient- insatiable- ravenous

3. Felə aid olan sinonim cərgələr:

Gain (almaq; əldə etmək) –achieve- earn,
Acguire- collect- get- make- obtain- produce- profit- proqress- reach- realize- win
Moderniçse (müasirləşdirmək)- modify- proqress- reform- remark- renew- remodel – renovate- update

4. Zərfə aid olan sinonim cərgələr:

Gradially (tədricən; yavaş-yavaş) –bit- by bit- inch by inch; little by little- moderately- slowly- steadily- step by step
Beforehand (qabaqcadan, əvvəlcədən) – already- before –earlier- in advance, preliminarily- previously- sooner.

Qeyd edək ki, sinonim cərgələrin üzvlərinin eyni bir nitq hissəsinə aid olması sinonimlərə xas olan xüsusiyyətlərdəndir.

Məsələn: fear- alarm-anxiety- herror- apprehension- fright – panic- ferror- trepidattion –worry;
Gradially- bir by bit- coutiously – little by little- moderately;
Grey – cloudy- - dim dull- pale- sunless- unclear; organise- arrange –classifu- form coordinate- group- set up – shape – structure – systematise və s.

Nümunə üçün verilmiş bu cərgələrin üzvləri eyni nitq hissəsinə ai dolu, eyni qrammatik mənalara malikdir.

Araşdırmalarda göstərir ki, belə bir qruplaşdırma aparılarsa aydın görmək olar ki, sinonimlər əsas nitq hissələrindən ən çox isim, sifət, fel və zərflərə aid olur.

- ismə aid olan sinonim cərgələr:

Fruit- advantage- benefit – conseguence- crop- effect- outcome – produce- product- profit- result- reward
Note- annotation – comment – indication- line mark- memo- message- record – remark – reminder- signal- symbol
Noise- bubble- clamour – clash –clatter- commation- vow- sound – talk- uproar

- sifətlə aid olan sinonim cərgələr:

Nice- attractive- charming- delightful- friendly- good-kind-pleusant-well-mannered

New- altered –comtemporary- modern- moderni- sed-recent- renewed- supplementary- unfamimliar- up- todate

Lively- active- allert- bright- brisk- cherrful- energetic- excting- frisky- merry- moving- spirited- sprightly- vivacious- vivid

-felə aid olan sinonim cərgələr:

Account- assume- calculate- compute- consider- count- estimate- evaluate- quesçs- imagine- regard- suppose

Fall- collapse- crash- dectine- descend- fall off- go down- sink- tumble

Deliberate- consider- consult – debate- dis- cuss- ponder- reflect- think- weigh

Finish- accomplish- achieve- end- complete- conclude- fulfit- stop- perfect- terminate

Gain- achieve – acquire- collect –mke- obtain- produce- profit- progress- resch- realize- win

Hurt- ache- annoy- damage- disable, distress- harm- injure- pain- sadden- upset- wound

- zərfə aid olan sinonim cərgələr:

Newly- anew- just- lately- recently

Fully- alltogether – completely- quite- entirely- perfectly- positively, suffi- ciently- thoroughly- totally- utterly- wholly

Brightly- brilliatly, cheerfully- colour- fully- happily, joyfully- light- hear- tedly, merrily

Easily- comfortably- effortlessly- readily- simrly

Bu dörd nitq hissəsini müqayisə etdikdə ən çox sinonimii olan isimdir. Moskvada nəşr olunan «Anqlo- russkiy slovarğ sinonimov» (tezaurus) kitabında bunu sübut edir.

Ümumiyyətlə, sinonim cərgənin üzvləri eyni nominativ funksiya daşımalıdır. Əgər sinonim cərgənin əsas üzvü əşyanın əlamətini bildirib, təyin vəzifəsində çıxış edirsə, o biri üzvlər də həmin mənada işlənməlidir. Beləliklə, sinonimlərdə məna deyil, nominativ funksiya eyni olur. Eyni funksiyalı mənaca yaxın sözlər bir sinonim cərgədə bir şeyi müxtəlif şəkildə ifadə edir. Yuxarıda göstərilmiş sinonim cərgə nümunələri də deyilənlərin həmin xüsusiyyətlərinin doğru olduğunu göstərir. Onu da qeyd edək ki, sinonim sözlər bir cərgədə birləşərək bütün məna və məzmunu yox, bir əlaməti əsas götürməklə məhdudlaşırlar. Buradan da aydın olur ki, sinonim münasibətində olan sözlər cərgədə bir əlamətinə görə iştirak edir və öz funksiyasını təyin edir.

Sinonimlər həm də ekspressiv üslubi cəhətdən də eyniləşdirilir, yəni eynilik anlayışına əsasən birləşib leksik- semantik qrup yaradır. Sinonimlər iki yerə bölünür: ***mütləq sinonimlər, nisbi sinonimlər.***

Mütləq sinonimlər hər zaman bir-birini əvəz edə bilir. Onlar bir sözün müxtəlif formalarla adlandırılması nəticəsində yaranır. Məsələn, ***eynək – çeşmək, bəxşiş – hədiyyə, dad – ləzzət*** və s. Belə sözlər **dubletlər** də adlamr.

Nisbi sinonimlər yaxın mənaları bildirir, onların nitqdə, söz birləşmələrində, cümlələrdə bir-birini tam əvəz edə bilməsi hər zaman mümkün olmur. Məsələn, «***ürəyim ağrıyır***» sözünün yerinə «***könlüm ağrıyır***» yaxud da «***qəlbim ağrıyır***» deyə bilmərik. Deməli, bunlar həmişə bir-birini əvəz edə bilmir, ona görə də bunlar nisbi sinonimlər adlamr. Sinonimlər eyni bir nitq hissəsinə aid olur. Məsələn, ***yüksək, hündür, uca*** – sifət; ***ancaq, lakin*** – bağlayıcı; ***cahan, dünya, aləm*** – isimdir.

Истифадя олунмуш ядябиййат:

1. Щ.Щясянов «Мцасир Азярбайъан дилининин лексикасы»
2. Англо русский словарь синонимов (Тезаурус) Москва, 2001
3. Лингвистическая энциклопедия. Москва, 2000.
4. Musayev O. İngilis dilinin qrammatikası. Bakı, "Maarif", 1996, 392 c.
5. Nağıyeva H. English. Bakı, "Maarif", 1971, 313 c.
6. Rəhimov İ. İngilis dilinin praktik qrammatikası. Bakı, "Maarif", 1966, 313 c.
7. Seyid-zadə N.B. English. Bakı, "Mütərcim", 2006, 298 s.

Açar sözlər: Azərbaycan dili, İngilis dili, Sinonim, Sinonim cərgə, Lügət Keywords: Azerbaijani language, English language, synonym, synonymous order, dictionary

Ключевые слова: Азербайджанский язык, Английский язык, синоним, синонимический ряд, словарь.

SUMMARY

About the synonymous order in English language

The article deals with one of the main fields of linguistics- about –synonyms, especially about the ways of creation of synonymous order in order to make the creation of synonymous order true, the author uses some dictionaries, especially synonymous dictionaries on the facts and materials as well.

РЕЗЮМЕ

О синонимических рядах на английском языке

В статье говорится об одной важнейших сферах лингвистики- о синонимах. В данном статье отмеча-ется о путях образование синонимических рядах. Автор статьи пользовал существующие разные словари и материалы о создание синонимических рядах во время работы

Rəyçi: dos.E.Vəliyeva